

*Ermənistan saxtakarlıq edərək bütün dünyaya Şuşa haqqında uydurmalar çatdırırdı ki, guya Şuşa onların qədim şəhəridir. Pənahəli xanın saldığı şəhər necə erməni şəhəri ola bilər?! Axı bu, yaxın tarixin işidir, hadisələridir. Əgər onlar bu şəhəri öz şəhəri hesab edirdilərsə, nə üçün belə bərbad vəziyyətə qoydular, nə üçün bütün binaları dağıtdılar? Görün, nə gündədir bu şəhər?! Daş üstə daş qalmayıb 30 il ərzində, ancaq özləri üçün villalar tikdiriblər, özləri üçün şərait yaradıblar".*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

# Şuşa – Azərbaycan tarixinin qeyrət və qəhrəmanlıq qalası

***Ötən ilin payızında 44 günlük Vətən müharibəsinin gedişində Azərbaycan dəmir yumruqla Ermənistanın işğalçılıq siyasətinə öldürücü zərbə vurdu. Bu qələbə erməni millətçiliyinin təcavüzkar mahiyyətini bir daha bütün dünyaya göstərdi.***

Azərbaycanın 33 illik Qarabağ münaqişəsini, Ermənistanın açıq təcavüzkarlıqdan əl çəkməməsi səbəbindən hərbi yolla sona çatdırması bölgədə haqq və ədalətə, sülh və dincliyə dayaqlanan yeni bir reallıq yaratsa da, qəbilə-faşist zəkasını milli düşüncə tərzinə və dövlət siyasətinə çevirən bədnam qonşular düşdükləri məğlubiyyət bataqlığından çıxmağın gerçək çarəsini hələ də anlamaq istəmirlər. Zehniyyəti türk düşmənçiliyi ilə formalaşmış bu xalqın kəmağıl, bədnam, müharibə caniləri olan siyasətçiləri məğlubiyyətin səbəblərini anlamır, siyasi reallığı qəbul etmir, qalib gəlmiş Azərbaycan həqiqətini isə milli faciə səviyyəsinə qaldırırlar.

2021-ci il yanvar ayının 16-da Ermənistanın baş naziri Nikol Paşinyanın respublika parlamentində Şuşa haqqında səsləndirdiyi bir fikir də bu ölkənin ictimai fikrində isterik səviyyədə hay-küyə çevrilmişdir. N.Paşinyan həmin çıxışında 1992-ci ildə işğal ərəfəsində Şuşa şəhərinin əhalisinin cəmi 10 faizinin erməni olmasını deməklə bu şəhərin ermənilərə məxsus olmadığına işarə etmişdi. Bu da ona qarşı yeni bir kampaniyanın başlanmasına rəvac verdi. Tarixdən xəbəri olanlar da, olmayanlar da erməni məntiqsizliyi və xülyaları ilə uyğun gəlməyən belə bir fikri səsləndirdiyi üçün N.Paşinyanı növbəti dəfə erməniliyə xəyanətdə, guya, erməniliyin tarixini saxtalaşdırmaqda ittiham etməyə başladılar. Son günlər kütləvi informasiya vasitələrində bu mövzu üstünlük təşkil etməklə erməni feykologiyasını yenidən körükləmişdir.

Adi məntiqdən və tarixi faktlardan uzaq olan erməni təbliğatı Şuşanın, guya, "Şuşi" olmasının əsaslandırılması məqsədilə, az qala, insanlığın meydana gəlməsindən əvvəl ermənilərin bu ərazidə yaşaması haqqında elə pozuq erməni məntiqinə uyğun olan nağıllar danışmaqdan yorulmurlar. Şuşa şəhərinin tarixinin "erməniləşdirilməsi" üçün erməni nağılbazlığının cəfəngiyyatdan başqa bir şey olmadığı haqqında elmi-tarixi dövriyyədə kifayət qədər mötəbər məlumat və araşdırma mövcuddur. Qarşı tərəfin cəfəngiyyatının təsdiqi üçün elə erməni müəlliflərinin yazdıqlarına diqqət yetirmək kifayətdir.

XVIII əsrin sonlarında Qarabağın dağlıq hissəsində anadan olmuş erməni salnaməçisi Mirzə Yusif Nersesov özünün "Tarixi-Safi" adlı əsərində Şuşa şəhərinin əsasının məhz Pənahəli xan tərəfindən qoyulması haqqında belə yazırdı: "O öz vəzir-vəkilləri ilə məsləhət etdi, bu qərara gəldilər ki, gözəl, səfalı və xətasız bir yerdə qala tikdirsinlər. Soraqlaşdıqdan və axtarış etdikdən sonra Məlik Şahnəzərin bələdçiliyi və nümayəndəliyi ilə əhalinin indiki yaşayış yeri olan Şuşa qalasının yerini müəyyən etdilər. Bu yeri Pənah xan özü gedib gözü ilə görmüş və hər cəhətdən bəyənmişdi. Lakin ərazinin ortasından su axmadığı üçün bir neçə yerdə quyu qazdırdı və bu quyulardan çoxlu su çıxdı. Bundan sonra 1752-ci ildə Pənah xan xoş bir gündə Şuşa şəhərinin təməlini qoydu. Şəhər cənub-qərbdən, şimal-şərqdən, həmçinin qərb və cənub tərəfdən piyada və qeyriləri üçün gediş-gəliş mümkün olmayan möhkəm hasar və təbii sıldırım qayalarla əhatə olunmuşdur. Divar çəkmək üçün şəhərin aşağı tərəfini və bir də şərq tərəfinin bəzi yerlərini ölçdülər. Bu işdə kənd əhli, mahalların məlikləri, ellərin başçıları ilə bir yerdə çalışaraq, beş arşın hündürlüyündə, iki arşın enində bir divar hördülər".

Erməni salnaməçi daha sonra qeyd edir ki, Şuşa şəhəri bina olandan sonra Pənah xan Şahbulaq qalasının əhalisini, bəzi Qarabağ və başqa kənd adamlarını köçürüb Şuşa şəhərinə gətirdi, onlara burada yer verdi, sikkəxana tikdirdi. Pənahabad adı ilə bir misqal vəznində gümüşdən pul sikkəsi vuruldu: "Şuşa şəhərinin məhəllələri aşağıdakılardan ibarətdir– Mehrili, Qazançılı, Əylisli, Çiləbörd Dərə, Aşağı məhəllə, Qurdlar, Culfa, Quyuluq, Çuxur məhlə, Hacı Yusuflu, Merdinli, Cuhudlar, Saatlı, Mamayı, Xoca Mərcanlı, Çölqala və Hamamarası".

Hər hala şübhə etmək olmaz ki, İbrahim xanın xanlığı dövründə Qarabağda anadan olmuş Mirzə Yusif Nersesovun yazdıqları bu gün beyinləri erməniliklə zəhərlənmiş olan millətçilərin uydurduqlarından daha mötəbərdir. Mirzə Yusifin sadaladığı məhəllə adları isə Şuşanın ermənilərə deyil, məhz azərbaycanlılara məxsus olduğunun elə erməni əli ilə yazılmış sübutudur. Bu şəhərin əhalisinin, guya, əksəriyyətinin erməni olması, Nikol Paşinyanın bunu danmasını sübut etmək üçün son günlərdə başıbəlalı erməni təbliğatçıları media səhifələrinə çıxardıqları uydurmalarında bir neçə statistik rəqəmi gözə soxmağa çalışırlar.

Şuşa şəhərinin əhalisinin say tərkibi haqqında onların göstərdiyi ilk statistik rəqəmlər 1830 və 1840-cı illərə aiddir. Bu məlumatlarda azərbaycanlılar Şuşada ermənilərə nisbətən çoxluq təşkil edirlər. Sonrakı illərə aid olan rəqəmlər isə ermənilərin xeyrinə dəyişmişdir. Bununla da onlar sübut etməyə çalışırlar ki, uzun müddət Şuşada erməni əhali çox olub və ona görə də bu şəhər erməni şəhəridir. Amma erməni təbliğatçıları Qarabağın Rusiyanın tərkibinə daxil olduğu zaman Şuşadakı azərbaycanlı əhalinin və sonradan bu əhalinin milli tərkibinin nə üçün dəyişməsini açıqlamaq istəmirlər. Elə yuxarıdakı illərə aid olan rəqəmlər də onu göstərir ki, azərbaycanlıların çoxluq təşkil etdiyi Şuşa şəhərində ermənilər sonradan artmağa başlamışdılar ki, bu da çar Rusiyasının bölgədə ermənilərin sayının artırılması ilə bağlı yeritdiyi siyasətin nəticəsi idi.

Qrant Mikaelyan adlı bir erməni bu günlərdə erməni feykologiyasına səxavətlə bəxş etdiyi bir yazısında bildirir ki, azərbaycanlı əhali yalnız 1920-ci ildə və bir də 1988-ci ildə, guya, Şuşa şəhərində həyata keçirilən erməni qırğınlarından sonra azərbaycanlı əhalinin sayı 90 faizə çatmışdı. Bu müəlllif özünün kiçik həcmli yazısında bir neçə dəfə 1920-ci ilin mart ayında Cümhruiyyət qoşunlarının Şuşaya daxil olaraq, guya, orada kütləvi erməni qırğını törətməsini qabartmağa və bununla N.Paşinyanın iddiasının arxasında tarixi həqiqət dayanmadığını əsaslandırmağa çalışmışdı.

Yalnız yuxarıda adı çəkilən erməni müəlifinin deyil, xüsusilə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin və ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Şuşaya səfərindən, həm də elə N.Paşinyanın parlamentdəki məlum çıxışından sonra erməni mediasında Şuşanın tarixi mövzusunda geniş yer almış yazıların bir çoxunda Azərbaycan Xalq Cümhuriyyəti dövründə, guya, Şuşada ermənilərə qarşı kütləvi qırğınlar törədilməsi ilə bağlı saysız-hesabsız feykə rast gəlmək mümkündür. Bu yazılarda ermənilər özlərini ənənəvi olaraq yalnız məzlum bir xalq kimi qələmə verir, Şuşanın məhz ermənilər tərəfindən tikildiyini əsaslandırmağa çalışırlar. Erməni müəllifləri belə bir fikri israrla təkrar edirlər ki, məhz 1920-ci ilin mart qırğınlarından sonra Şuşa şəhərində ermənilərin sayı azalmağa başladı.

Tarixi həqiqət isə heç də ermənilərin ictimai fikrə sırımaq istədikləri kimi deyil. 1920-ci ilin martında Şuşada azərbaycanlılar deyil, Ermənistan hökumətinin yeritdiyi siyasətə əsasən, erməni millətçi-təcavüzkar dairələri milli qırğınlara rəvac vermişdilər. Belə bir qiyamın başlanması üçün hələ 1920-ci ilin fevralından hazırlıq başlanmışdı. Bunun üçün Ermənistan hökumətinin xüsusi nümayəndəsi olan Arsen adlı birisinin rəhbərliyi ilə Şuşa ermənilərindən Məlik Şahnəzərovun evində toplantı çağırılmışdı. Müşavirədə Məlik Şahnəzərovdan başqa, Dəli Qazar adı ilə tanınan mayor Sergey və digərləri də iştirak edirdilər.

Bu müşavirədə müzakirə olunan əsas məsələ Azərbaycan xalqına qarşı erməni qiyamının haradan başlanması idi. Ermənistan hökumətinin nümayəndəsi təkid edirdi ki, erməni qiyamı Xankəndidə, Əsgəranda, habelə Gəncə istiqamətində təşkil edilsin. Samson Məlik Şahnəzərov və Dəli Qazar isə tələb etdilər ki, erməni qiyamı Şuşadan başlansın. Şuşa ələ keçiriləndən sonra Xankəndi və sonra da Əsgəran bütünlüklə nəzarət altına alınsın. Ermənistan hökumətinin nümayəndəsi bu təklifi qəbul etmədi və bildirdi ki, Xankəndi ələ keçiriləndən sonra Şuşanın ələ keçirilməsi elə də çətin olmayacaqdır. Əsgəranın tutulması isə Şuşaya hər hansı bir kömək gəlməsinin qarşısını alacaqdır. Digər müşavirə iştirakçıları yenidən təkid etsə də, Ermənistan hökumətinin nümayəndəsi erməni silahlı qüvvələrinin hücumunun ilkin olaraq Xankəndi və Əsgəran üzərinə istiqamətləndirilməsi üzərində dayandı.

Tezliklə baş verən hadisələr də göstərdi ki, erməni millətçiləri Şuşa və digər şəhərlərdə kütləvi qiyama hazırlaşırlar. Belə ki, martın 19-da erməni silahlıları hücum edərək Şuşadakı postlarda dayanmış 2 nəfər azərbaycanlı əsgəri qətlə yetirdilər . Martın 20-də yerli hökumət orqanlarında işləyən 2 erməni məmuru vasitəsilə 25 nəfər erməni silahlısı gizli şəkildə Şuşaya gətirildi. Martın 20-də onların sayı Şuşada 200 nəfərə çatdırıldı. Elə həmin günlərdə Zəngəzur qəza rəisinin Qarabaş general-qubernatoru Xosrov bəy Sultanova göndərdiyi teleqramında bildirilirdi ki, ermənilər bütün cəbhə boyu güclü kəşfiyyat aparırlar və əldə edilmiş düzgün məlumatlara görə, ermənilər hücuma hazırlaşırlar. Onların məqsədi Şuşadan keçməklə Qarabağa çıxmaqdır.

Kütləvi silahlı təcavüzə erməni millətçi dairələri çoxdan hazır olsalar da, onun başlanması 1920-ci ilin Novruz bayramı günlərinə planlaşdırıldı. Bu tarixin seçilməsi təsadüfi deyildi. Çünki həmin gün bütün Azərbaycan xalqı kimi, əsgərlərimiz də Novruz bayramının gəlişini qeyd edəcəkdilər. Qoşun bölmələrinin milli bayramının qarşılanması ilə məşğul olması erməni silahlılarının qəfil hücumu üçün əlverişli şərait yaradardı. Erməni millətçi dairələri bu irimiqyaslı hücumun başlanmasına geniş hazırlıq işləri aparmışdılar. Hücumun bir neçə məntəqədə aparılması üçün onlar öz qüvvələrini vaxtında qruplaşdırmış və lazımi silah və sursatla təmin etmişdilər. Hücum ərəfəsində Azərbaycan ordusuna aid hərbi hissələr və müdafiə postları arasında olan bütün teleqraf və telefon xətləri kəsilmişdi.

Ermənistan hökuməti belə bir plan hazırlamışdı ki, Şuşa-Ağdam istiqamətində və Tərtər ətrafında qiyam qaldıraraq strateji məntəqələrə nəzarəti ələ keçirsin və bunun ardınca Zəngəzurla Qarabağ arasındakı azərbaycanlı kəndləri məhv edilsin. Sonra da Zəngəzur və Qarabağın erməni kəndlilərinin Azərbaycan hakimiyyətinə qarşı "azadlıq mübarizəsi"nə qalxmaları barəsində səs-küy qaldırılsın. Yəni, erməni millətçiləri Qarabağda qiyamın qaldırılmasına yalnız toplarla deyil, həm də təbliğat maşınının fəaliyyətə gətirilməsi ilə hazırlaşırdılar.

Əslində, Qarabağ qiyamı ilə bağlı erməni təbliğat maşını erməni toplarından daha tez hərəkətə gətirilmişdi. Qarşısına təcavüzkar məqsədlər qoyan erməni millətçilərinin Qarabağda erməni qiyamı ilə bağlı təbliğat fəaliyyətinin hansı mahiyyət və məzmun daşıdığını təsəvvür etmək elə də çətin deyil. Bu hadisələrə münasibətdə erməni təbliğatını izləməklə bir daha erməni saxtakarlığının, tarixi hadisələrə saxta məntiqin necə formalaşdırıldığının və ictimaiyyətə sırandığının şahidi olmaq mümkündür.

Şuşada qiyama başlanmazdan əvvəl erməni silahlıları özlərinə atəş mövqeləri yaratdılar və şəhərin erməni məhəlləsindəki kazarmalarda yerləşən Azərbaycan qoşun bölmələrini mühasirəyə aldılar. Şəhərin erməni məhəlləsində antiazərbaycan əhval-ruhiyyəsi xeyli genişləndi. Məhz bunun nəticəsi idi ki, Qarabağ general-qubernatoru Novruz bayramının açıq və təntənəli şəkildə keçirilməsinə razı olmadı. Mart ayının 22-də onun təklifi əsasında şəhərin tanınmış adamları bayramlaşmaq üçün Şuşa qəza qazısı Oruczadənin evində toplaşdılar. Xosrov bəy Sultanov istəyirdi ki, erməni təhlükəsi ilə rastlaşmamaq üçün azərbaycanlılar bir-birinin evlərini gəzməsinlər və toplu bir mərasimdə bir-birlərini təbrik etsinlər.

Elə həmin gün şəhərin erməni xəlifə-arxiyeri və digər nüfuzlu ermənilər də azərbaycanlı əhalinin nümayəndələri ilə görüşdülər və azərbaycanlıları Novruz bayramı münasibətilə təbrik etdilər. Erməni xəlifəsi şəhər məscidində də çıxış edərək azərbaycanlı əhalini sakitləşdirməyə çalışdı. Gecə isə azərbaycanlı əhali güclü atəş səslərinə ayılmalı oldu. Erməni qiyamı Xankəndində və Əsgəranda Şuşaya nisbətən daha tez başlandı. Xankəndinə hücumun başlaması Şuşada da Azərbaycan məhəlləsinin və qarnizonunun üzərinə hücuma başlamaq üçün bir işarə oldu. Şuşukənd istiqamətindən də Şuşanın top atəşinə tutulması başlandı. Xosrov bəy Sultanov mərkəzə göndərdiyi teleqramda bildirirdi ki, bu hücumdan qəzəblənən azərbaycanlı əhalini nəzarət altında saxlamaq xeyli çətinləşdi və insanların təhlükəsizliyinin təmin edilməsi üçün sakinlər tərəfindən müvafiq tədbirlərə əl atıldı.

Doğrudan da, Şuşanın azərbaycanlı əhalisi ermənilərin qəfil başlanan qiyamını çox böyük qəzəblə qarşıladılar. Xüsusilə, erməni xəlifəsinin azərbaycanlı əhalini sakitləşdirməyə çalışması, habelə Şuşadakı Azərbaycan bölmələrinin mühasirəyə alınması və şəhərin ətrafdan top atəşlərinə tutulması onları silaha sarılmağa məcbur etdi. İlk növbədə, erməni məhəlləsində olan milli qoşun bölməsinin mühasirədən çıxarılmasına cəhd göstərildi ki, bu da erməni məhəlləsinə sədəməsiz ötüşmədi. Çünki bu zaman erməni silahlıları ciddi zərbə almışdılar.

Milli xislətə uyğun olaraq, Ermənistan hökumətinin rəhbərliyi isə müttəfiq dövlətlərin nümayəndələri qarşısında mart ayının 22-dən 23-nə keçən gecə ermənilərin deyil, məhz azərbaycanlıların "əzabkeş" ermənilər üzərinə kütləvi hücuma keçməsi haqqında qaraqışqırıq salmağa başladılar. Məsələn, Ermənistan hökumətinin sədri Xatisov 1920-ci il mart ayının 28-də Böyük Britaniyanın, ABŞ-ın ali komissarlarına, İtaliya və Fransa hərbi missiyalarına göndərdiyi məktubda mart ayının 20-dən başlayaraq Qarabağ və Zəngəzur erməniləri üzərinə hücuma keçdiyini iddia edirdi. Ermənistan hökuməti sədrinin 1920-ci il mart ayının 30-da Böyük Britaniya ali komissarına göndərdiyi digər məktubunda və həmin tarixdə onun Azərbaycanın xarici işlər nazirinə ünvanladığı bəyanatında da oxşar fikirləri səsləndirdi. 3 aprel 1920-ci il tarixli başqa bir məktubunda o, mart ayının 23-də nizami Azərbaycan qoşunlarının Qarabağ erməniləri üzərinə hücuma keçdiyini iddia edirdi.

Lakin elə erməni mənbələrinin özləri Qarabağ qiyamının başlanmasının Ermənistan hökuməti sədrinin təbliğat xarakterli bəyanatlarından fərqli şəkildə təsvir edirlər. Məsələn, Ermənistanın Müdafiə Nazirliyinin 27 aprel 1920-ci il tarixinə aid olan məlumatında deyilirdi ki, erməni əhalisi Azərbaycan hakimiyyət orqanlarına silahını təhvil vermək istəmədi və martın 22-də qiyam qaldıraraq Əsgəranı tutdu. Şuşa və Xankəndindəki qarnizonlar isə mühasirə edildi. Məlumatda daha sonra deyilirdi ki, martın 24-də tatarlar Şuşada bu qiyama silahla cavab verdilər.

Görünür, ermənilər gözləyirmişlər ki, onların qiyam qaldırmaq haqqı var, amma azərbaycanlıların bu hücuma cavab vermək hüququ yoxdur. Yoxsa, azərbaycanlı əhalinin və Azərbaycan hakimiyyət orqanlarının erməni cinayətlərinə cavab vermək cəhdini belə təəccüblə qarşılamazdılar. Ermənistan hökumətinin sədrinin özü də 1920-ci il martın 25-də Ermənistanın Gürcüstandakı diplomatik nümayəndəsinə göndərdiyi teleqramda Qarabağ ermənilərinin qiyam qaldırdığını təsdiq edirdi. Mart ayının 25-də Ermənistanın Azərbaycandakı diplomatik nümayəndəsi M.Arutyunyan Azərbaycanın xarici işlər nazirinin ermənilərin qiyam qaldırması ittihamını qəbul etməli olmuş, lakin bu qiyamın qaldırılmasına Qarabağ general-qubernatorunun fəaliyyətinin səbəb olduğunu əsaslandırmağa çalışmışdı.

Riçard Ovanesyan adlı erməni tarixçisi də Qarabağda erməni qiyamının başlanması səbəbi haqqında nisbətən daha ədalətli məlumat vermişdir. O yazırdı ki, 1920-ci il martın 24-nə (?) keçən gecə azərbaycanlılar Novruz bayramını qeyd etdikləri bir vaxtda ermənilər Şuşada, Xankəndində və Əsgəranda yerləşən Azərbaycan qarnizonuna hücum etdilər. Onlar güman edirdilər ki, qəfildən yaxalanmış olan azərbaycanlılar ciddi müqavimət göstərə bilməyəcəklər.

1920-ci il mart ayının 22-dən 23-nə keçən gecə ermənilərin silahlı üsyan qaldırmalarının qiyam kimi xarakterizə edilməsi erməni millətçilərinin heç də ürəyincə deyildi. Antiazərbaycan və antitürk təbliğatının alovlandırılması üçün ermənilər baş verən hadisələrin mahiyyətini gizlətməkdən çəkinmirdilər. Azərbaycan hakimiyyətinə qarşı qiyam qaldırmış erməni millətçi separatçılarının susdurulması üçün Azərbaycan dövləti tərəfindən həyata keçirilən tədbirlər isə "məzlum ermənilərin" əzilməsi, qırılması, məhv edilməsi kimi dünya ictimaiyyətinə təqdim edildi.

Məsələn, Ermənistan hökumətinin sədrinin bu hökumətin təhriki və himayəsi ilə Qarabağda başlanan erməni qiyamına toxunmadan Böyük Britaniyanın ali komissarına göndərdiyi teleqramda bildirilirdi ki, Azərbaycan qoşunları, silahlanmış müsəlman dəstələri bütün cəbhə boyu Zəngəzur və Qarabağ istiqamətində hücum edərək kəndləri dağıdır, dinc erməni əhalisini qırıb-çatırlar. Şuşada bütün erməni əhali, guya, məhv edilib. Elə erməni tarixi ədəbiyyatında Şuşa hadisələri ilə bağlı belə qarayaxmalara çox rast gəlmək mümkündür.

Onu da qeyd etmək lazımdır ki, həmin tarixi hadisənin mahiyyətini dəyişməklə elə bu gün də Azərbaycan xalqına qarşı insafsız qarayaxmalar davam etdirilir. Özünü tarix elmləri doktoru kimi təqdim edən Q.Abramyan adlı bir erməni müəllifi yazır ki, 1920-ci il martın 23-də Şuşanın "əsl qurucuları və sahibləri olan ermənilər", guya, genosid qurbanı oldular. Guya, Şuşa erməniləri Sultanovun girovuna çevrildilər, onun əmri ilə erməni evlərinin yandırılması üçün əvvəldən azərbaycanlılara neft və kibrit paylandı. Azərbaycanın Qarabağa hücumu 23-nə keçən gecə başladı.

Özünü hüquq elmləri doktoru kimi təqdim edən Y.Barseqov adlı başqa bir erməni təbliğatçısı yazır ki, Azərbaycan Ermənistanın sülhə çağırışlarını qulaqardına vuraraq Qarabağ ermənilərinin kütləvi qırılması ilə müşayiət olunan açıq təcavüzə keçdi. Şuşada baş verən hadisələrlə bağlı hazırda çap olunan kitablarda və elektron informasiya vasitələrində erməni müəlliflərinin dilindən antiazərbaycan xarakterli ən müxtəlif qondarmalarla rastlaşmaq mümkündür. Halbuki yuxarıda deyildiyi kimi, həqiqət heç də belə deyildi. Bunu həmin hadisələr zamanı qırıldığı iddia edilən ermənilərin sayı haqqında ortaya qoyulan rəqəmlərin günü-gündən artması da sübut edir.

Bu rəqəmlərin həqiqətə nə qədər yaxın olduğunu təsəvvür etmək üçün həmin vaxt Şuşada nə qədər erməninin yaşaması haqqında rəqəmə diqqət yetirmək maraqlı olardı. 1917-ci ilə aid olan "Kavkazskiy kalendar"da qeyd olunur ki, 1916-cı ildə Şuşada 23 min 396 erməni yaşayırdı. 3--4 il ərzində Şuşada yaşayan ermənilərin say artımında kəskin dəyişiklik baş verməsi, sözsüz ki, mümkün deyildi. Bunu elə "Kavkazskiy kalendar"ın əvvəlki nəşrlərində Şuşada müxtəlif illərdə yaşayan ermənilərin statistikası haqqında olan rəqəmlərin müqayisəsi də göstərə bilər.

Heç şübhəsiz ki, Novruz bayramında azərbaycanlı əhalinin və Azərbaycan hakimiyyət orqanlarının başı bayram qayğılarına qarışdığı bir zamanda dinc əhaliyə qarşı qiyam qaldırıb Şuşanı azərbaycanlılardan birdəfəlik təmizləməyə çalışan erməni millətçiləri onlara qarşı müqavimət göstəriləcəyini və Şuşanın erməni məhəlləsində toplaşan və dinc erməni əhalisinin özünün də rahatlığını pozan silahlı erməni terror dəstələrinin neytrallaşdırılacağına cəhd göstəriləcəyini istisna etməməli idilər. Ermənilərin Novruz axşamı planlaşdırdıqları təxribatın ağır nəticələrinə gətirib çıxaracağını bir çox ermənilər özləri də yaxşı hiss edirdilər. Onların arasında Erməni Milli Şurasının üzvləri, general-qubernator yanındakı şuranın erməni üzvləri və bir çox erməni ailələri təhlükə hiss edərək əvvəldən Şuşanı tərk etmişdilər.

Azərbaycanın hakimiyyət orqanları bu təcavüzü başlayanlara qarşı ciddi mövqe tutdu. Atılan qətiyyətli addımlar nəticəsində erməni təcavüzkarlarının çoxu öz haqlı cəzalarına çatdılar və nəticədə, Şuşanın bütünlüklə erməniləşdirilməsi planı uğursuzluğa düçar oldu. Bu isə erməni millətçilərinə dərs olmadı. Əksinə, öz başladıqları təcavüzün qurbanı olan erməniləri əllərində bayraq edib Azərbaycana qarşı yeni bir təbliğat kampaniyasına başladılar. Onlar başladıqları təcavüzün günahını Azərbaycan üzərinə atmaqla, Şuşa şəhərində ermənilərə divan tutulması barəsində ilə bağlı fantastik rəqəmlər ortaya atdılar. Ermənilər bu təbliğata aludə olduqca Şuşada, guya, azərbaycanlılar tərəfindən qırılan ermənilərin sayı da artmağa başladı.

1920-ci ilin mart--aprelində Qarabağda fəaliyyət göstərən erməni silahlı qüvvələrinin qərargah rəisi 1920-ci il aprelin 20-da Ermənistanın müdafiə nazirinə göndərdiyi məruzədə Şuşada 8 min erməninin öldürüldüyünü bəyan edir. Bu rəqəm, əslində, heç reallığı əks etdirə bilməz. "Məzlum ermənilər"in itkiləri haqqında rəqəmlərin şişirdilməsi də erməni təbliğatının sınanmış ənənələrindən biridir. Bununla belə, hətta bu şişirdilmiş rəqəm özü də sonradan erməni təbliğatını qane etmədi və azərbaycanlıların ermənilərə qarşı "qəddarlığının" ictimai fikrə təsir səviyyəsinin qaldırılması üçün Şuşa qurbanlarının sayının da şişirdilməsinə yol açıldı.

Nəticədə, bu mövzuya müraciət edən hər erməni müəllifi-- təbliğatçısı heç bir dəlilə əsaslanmadan yeni rəqəmlər uydurmağa başladı, Guya, 10 min, 20 min, 25 min, 40 min, hətta 45 min erməninin öldürülməsi ağ yalandır. Bu rəqəmlərə hazırda kütləvi-informasiya vasitələrində dövriyyədə olan erməni yazılarında gen-bol rast gəlmək mümkündür. 1920-ci ildə Şuşada, ən çoxu, 25 min erməninin yaşaya biləcəyi halda qırılanların sayının 35--45 min arasında olması tarixi həqiqətlərə erməni yanaşmasının nəticəsidir.

Lakin bu rəqəmlərin şişirdilməsinin mənasız olduğunu etiraf edən erməni müəllifləri də tapılmaqdadır. Məsələn, amerikalı erməni tarixçisi Riçard Ovanesyan öz kitabında 1920-ci ilin mart hadisələri zamanı Şuşada cəmi 500 erməninin öldürüldüyünü yazıb. Qarabağ hadisələri ilə bağlı kifayət qədər böyük bir kitab çap etdirmiş Arsen Məlik Şahnəzəryan adlı birisi isə qeyd edir ki, Şuşada ermənilərin qırılması ilə bağlı göstərilən rəqəmlər doğru deyil. Ən azı, ona görə ki, həmin vaxt Şuşada o qədər erməni yaşamırdı. Sonra isə o, ehtimal kimi yazır ki, 1920-ci ilin 22 – 23 mart hadisələri zamanı Şuşada öldürülən ermənilərin sayı 6 – 10 min arasında ola bilərdi. Bu erməni müəllifi də heç bir dəlil tapa bilmədiyi üçün öz ehtimalı ilə tarixi hadisələr haqqında hökm verməyə çalışmışdır.

Yəni erməni millətçilərinin Şuşada azərbaycanlı əhalinin çoxluq təşkil etməsinin, guya, 1920-ci ildə bu şəhərdəki erməni əhaliyə qarşı qırğınlar törədilməsi ilə bağlanması heç bir tarixi gerçəkliyə və məntiqə əsaslanmır. Belə iddialar erməni tarixçiliyinin, feykologiyasının, erməni millətçilərinin korşalmış təfəkkürünün formalaşdırdığı xülyaları ictimai fikrə sıramaq cəhdindən başqa bir şey deyildir. Şuşanı quranlar, yaradanlar var, bu şəhərin əsl sahibləri var. Bu mənada Nikol Paşinyanın Ermənistan parlamentində Şuşa şəhərinin kimlərə mənsubluğu ilə bağlı işarə etdiyi fikirlərini, erməni millətçiləri qəbul etsələr də, etməsələr də, həqiqətə işarədir.

Şuşanın əsi sahibləri isə artıq Şuşaya qayıdıblar. Amma bu şəhərin seyr edilən mənzərəsi heç də ürəkaçan deyil. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi, əgər ermənilər "bu şəhəri öz şəhəri hesab edirdilərsə, nə üçün belə bərbad vəziyyətə qoydular, nə üçün bütün binaları dağıtdılar? Görün, nə gündədir bu şəhər?! Daş–üstə daş qalmayıb". Bu vandallığı və vəhşilikləri törədənlər yenidən hansı məntiqlə Şuşaya qayıtmaq xülyaları ilə yaşayırlar?! Beləlari gərək Azərbaycan xalqının dəmir yumruğunu unutmasınlar. İndi Şuşa sahibsiz deyil.

***Mehman SÜLEYMANOV,***
***Silahlı Qüvvələrin Hərbi Akademiyasının professoru, tarix elmləri doktoru***